Xalq qəzeti.- 2021.- 2 sentyabr.- S.4.

# Azərbaycan səmimi və dürüst olanlarla sıx münasibətlər qurulmasının tərəfdarıdır




***Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı, mədəni irsini talan etdiyi, tarixi abidələrini dağıtdığı Qarabağ Azərbaycan mədəniyyətinin beşiyidir. Zəngin mədəni irsə malik Qarabağ Azərbaycana Pənahəli xan Cavanşir, Xurşidbanu Natəvan, Üzeyir Hacıbəyli, Molla Pənah Vaqif, Bülbül, Əbdürrəhim bəy Haqverdiyev kimi böyük şəxsiyyətlər və mədəniyyət xadimləri bəxş edib. Təsadüfi deyil ki, ənənəvi Qarabağ atüstü oyunu Çövkən, əsasən Qarabağda formalaşan Azərbaycan muğamı və Azərbaycan xalçası UNESCO-nun müvafiq siyahılarına daxil olunub. Lakin vəzifəsi davamlı sülh dialoqunun və qarşılıqlı anlaşmanın, eləcə də bəşəriyyətin intellektual və mənəvi həmrəyliyinin əsasının qurulmasına yardım etmək olan UNESCO-nun tarixi abidələrimizə erməni təcavüzkarları tərəfindən dəymiş ziyanın qiymətləndirilməsi təklifinə vaxtında müsbət reaksiya verməməsi və müharibənin bitməsindən sonra azad olunmuş ərazilərə gəlmək istəyini açıqlaması, lakin bunun təxirə salınması əlbəttə ki, təəccüb doğurur.***

Ən əsası, bəşəri irsin ermənilər tərəfindən vəhşicəsinə məhv edilməsinə vaxtında reaksiya verməməsi UNESCO-nun missiyasına kölgə salır. Bu gün yenə də Ermənistanın narazılığına adekvat reaksiya göstərməməsi ölkə ictimaiyyətində haqlı narazılığa səbəb olur.

Ermənilərin Azərbaycana qarşı təcavüzünün faciəli nəticələri təkcə tarixi ərazilərimizin zəbt edilməsi, insanların öz yurd-yuvasında qaçqına və məcburi köçkünə çevrilməsi ilə məhdudlaşmır, mənfur qonşularımız tarixi-mədəni, dini abidələrə, musiqi irsinə və etnik-mədəni dəyərlərə də ağır zərbələr vurublar. Xüsusilə də son 30 illik işğala məruz qalmış ərazilərdə ermənilər türk-islam mədəniyyətinə aid dini-tarixi abidələr, xüsusən məscidlər, alban məbədləri, qədim məzarlıqlar, arxeoloji qazıntılar, muzeylər, kitabxanalar, rəsm qalereyaları, dövlət teatrlarını, musiqi məktəblərini tam və ya qismən dağıdıblar, zəbt edilmiş muzeylərdən çoxsaylı qiymətli əşyaları, milyonlarla kitab və tarixi əlyazmaları Ermənistana daşıyıb və ya məhv ediblər. Ermənilər 30 illik işğal zamanı təkcə türk-islam abidələrinə qarşı deyil, həmçinin xristian və xristianlığaqədərki abidələrə qarşı da vandallıq törədiblər. Bundan başqa, işğal müddətində Ermənistan ərazilərimizdə məqsədli şəkildə Azərbaycan izini itirməyə çalışaraq bütün toponimləri erməniləşdirmişdilər. Ermənilərin bu vandalizmi beynəlxalq hüquqa da zidd idi. Belə ki, ermənilərin Azərbaycanın işğal olunmuş torpaqlarında tarixi-dini abidələrə qarşı törətdikləri saxtakarlıq və cinayət əməlləri beynəlxalq səviyyədə təsbit olunmuş “Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında” 1954-cü il Haaqa Konvensiyasının, “Arxeoloji irsin mühafizəsi haqqında” 1992-ci il Avropa Konvensiyasının, “Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında” Paris Konvensiyasının və “Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında” UNESCO-nun 1972-ci il Konvensiyasının tələblərini kobudcasına pozurdu.

Əlbəttə, xalqımızın milli-mənəvi yaddaşına güclü zərbə vurulması ilə Azərbaycan dövləti barışa bilməzdi və öz mövqeyini ən müxtəlif səviyyələrdə bildirirdi. Lakin, təəssüf ki, bir sıra beynəlxalq təşkilatlar kimi, UNESCO da erməni vandallığına zəruri reaksiyanı vermirdi. Halbuki, Ermənistanın işğal olunmuş ərazilərdə azərbaycanlılara məxsus maddi-mədəni irsi məhv etməsi yalnız Azərbaycana qarşı yönəlməmişdi. Bu, ümumbəşəri sivilizasiyaya qarşı törədilən vəhşilik, vandalizm aktı idi. Ancaq ermənilərin abidələrə qarşı apardıqları amansız müharibə beynəlxalq təşkilatlar tərəfindən passiv və nəticəyə yönəlməyən reaksiya ilə qarşılanırdı. Xüsusilə də UNESCO-nun müxtəlif bəhanələrlə erməni vəhşiliyinə qiymət verməkdən yayınması böyük təəccüb və haqlı suallar doğururdu. Halbuki bu təşkilat Ermənistanın qanunsuz əməllərinə adekvat reaksiya verməli və bunları pisləməli idi. Çünki ortada bəşəri dəyər hesab edilən çoxsaylı vandalizm aktları var. Belə ki, 30 il işğal altında qalmış ərazilərdə Ermənistan tərəfindən 927 kitabxana, 60-dan çox məscid, 44 məbəd, 473 tarixi abidə, saray və muzeylər dağıdılıb, eləcə də 40 min muzey eksponatı qanunsuz olaraq daşınıb. Bununla əlaqədar, Azərbaycan tərəfi UNESCO rəhbərliyi qarşısında mütəmadi olaraq müvafiq tədbirlərin görülməsi ilə bağlı məsələ qaldırmaqdadır. 44 gün davam etmiş İkinci Qarabağ müharibəsinin başa çatmasından sonra Azərbaycanın erməni vandalizmi ilə tanış olmaq məqsədilə göndərilən çoxsaylı dəvətinə müsbət reaksiya verməyən UNESCO 44 günlük müharibədən sonra azad olunmuş ərazilərə gəlmək istədiyini bildirməsi, sözsüz ki, təşkilatın bitərəfliyini açıq-aşkar pozur.

Xüsusilə də, Azərbaycanın hazırda etiraz etmədiyi, lakin yenə də Ermənistanın narazılıq etdiyi halda UNESKO-nun missiyasının hələ də azad olunmuş ərazilərə gəlib çıxmaması birmənalı qiymətləndirilmir. Bu, açıq-aşkar nüfuzlu təşkilatın erməni dəyirmanına su tökməsi anlamına gəlir. Halbuki beynəlxalq qətnamə və qərarlara məhəl qoymayan Ermənistanın işğalçı siyasəti nəticəsində dəymiş zərərin miqyasını qeydə almaqla UNESCO belə vandallığın bir daha təkrarlanmamasına öz töhfəsini vermiş olardı. Ermənilərin nazı ilə oynamaqla UNESCO ali beynəlxalq təşkilatın yox, hansısa qurama dövlətin şöbəsi olduğunu təsdiqləyir. UNESCO-da da gözəl bilirlər ki, Ermənistanın Azərbaycan torpaqlarında vandalizmi bəşər mədəniyyətinə qarşı təcavüzdür və dünya ictimaiyyəti bu vəhşiliyə adekvat reaksiya verməlidir. Amma UNESCO-dan bu adekvatlıq hələlik görünmür.

Prezident İlham Əliyev BMT-nin Azərbaycanda yeni təyin olunmuş rezident əlaqələndiricisini qəbul edərkən bildirib ki, UNESCO-dan tarixi abidələrimizə erməni təcavüzkarları tərəfindən dəymiş ziyanı gəlib görməyi xahiş edirdik, lakin onlar imtina etdilər. “UNESCO rəsmiləri dedilər ki, UNESCO siyasi məsələlərə qarışmır. Lakin, müharibə bitdikdən sonra UNESCO tərəfindən onların gəlmək istədiyinə dair siqnallar aldıq. Əlbəttə, biz öz təəccübümüzü bildirdik. Çünki demək olar, 30 il idi ki, biz onları çağıranda gəlmirdilər. Müharibədən sonra isə gəlməyə qərar verdilər. Buna görə biz buna razılaşdıq və mənim də bildiyim qədər son məlumat belə idi ki, missiya artıq yaradılıb, amma indi Ermənistan yenə etiraz edir. Buna görə yenə də missiya gecikir”. Halbuki Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, Azərbaycan işğaldan azad olunmuş ərazilərində törədilən dağıntıların müvafiq şəkildə sənədləşdirilməsi üçün bu ərazilərə müstəqil və hərtərəfli beynəlxalq missiyanın göndərilməsində ən maraqlı tərəfdir. Lakin Ermənistanın qeyri-konstruktivlik nümayiş etdirərək Azərbaycanın UNESCO missiyası ilə bağlı bütün çağırışlarının qarşısını alıb, bu xoşagəlməz proses yenə də işə düşüb.

Prezident İlham Əliyevin dediyi kimi, hazırda bizim əsas narahatlığımız dağıdılmış, tamamilə viran qoyulmuş ərazilərin bərpasıdır. Dövlətimiz bu istiqamətdə böyük layihələr həyata keçirir. Bununla yanaşı, rəsmi Bakı səbəbsiz təlaşa düşmüş bəzi beynəlxalq təşkilatlara da qarşı tolerantlıq nümayiş etdirir və humanistlik prinsiplərindən irəli gələrək, zəruri addımların atılmasının mümkünlüyünü açıqlayır. Halbuki II Qarabağ müharibəsi zamanı, bəzi dövlət və beynəlxalq təşkilatlar kimi UNESCO da xristian abidələrinin taleyindən “narahatlığını” ifadə etməklə qeyri-səmimiliyini büruzə vermişdi. Bütün dünya bilir ki, Azərbaycan multikultural və tolerant ölkə kimi öz ərazisində bütün mədəni və dini abidələrin, o cümlədən müsəlman, yəhudi və xristian abidələrinin mühafizəsini yüksək səviyyədə təmin edir və erməni işğalından azad olunmuş ərazilərdə xristian abidələrinin taleyi üçün heç bir narahatlığa əsas yoxdur. Baxmayaraq ki, Azərbaycan 30 il erməni işğalından şiddətli zərbə görmüş türk-islam mədəniyyətinin acınacaqlı vəziyyəti barədə bütün instansiyaları məlumatlandırmış və təcili tədbirlər götülməsi barədə müraciətlərinə müsbət cavab almamışdı. Bütün bunlara rəğmən bu gün rəsmi Bakı UNESCO-nun son istəyinə müsbət reaksiya verir, bu təşkilatla əməkdaşlıq etməyə hazır olduğunu bildirir. Əlbəttə ki, UNESCO Azərbaycanla əməkdaşlığını bundan sonra da inkişaf etdirmək istəyirsə, ilk növbədə statusundan irəli gələn prinsiplərə əməl etməlidir. Prezident İlham Əliyevin dediyi kimi, UNESCO öz beynəlxalq statusunu saxlamalıdır, çünki o hər hansı bir ölkənin filialı deyil: “Əgər bu yanaşma bizim münasibətlərimizdə üstünlük təşkil edərsə, əməkdaşlıq olacaq. Əgər yox, olmayacaqsa, bu əməkdaşlığa yenidən baxmaq olar. Hər halda bizim niyyətimiz təmizdir. İkili standartlardan, islamofobiyadan, ayrı-seçkilikdən azad olan münasibətlər olmalıdır”.

Heç kim unutmamalıdır ki, işğal zamanı məhv edilmiş maddi-mədəniyyət abidələri tariximizin daş yaddaşı, milli sərvətimizdir. Bu abidələr təkcə maddi-mədəniyyət deyil, həm də mənəviyyat tariximizin səhifələridir. Tariximizin daşlaşmış yaddaşının gələcək nəsillərə ötürülməsi kimi strateji missiyanın layiqincə yerinə yetirilməsi üçün də Azərbaycan dövləti zəruri addımlar atır və bu mühüm prosesdə ikili standartlardan uzaq olan istənilən dövlət, təşkilat və şəxslə əməkdaşlığa hazır olduğunu vurğulayır. Müharibə artıq dünəndir, sabaha inamla baxmaq üçün bu gün reallıqlara uyğun qərarlar qəbul etmək və addımlar atmaq zəruridir. Azərbaycan məhz bu istiqamətdə hərəkət edir, bu yolda səmimi və sürüst olanlarla sıx münasibətlərin qurulmasının tərəfdarıdır.

*Səbuhi MƏMMƏDOV,*
*“Xalq qəzeti”*